# Yeni dünya düzənində Azərbaycanın yeri - azərbaycançılığın gücü...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## 5.3.9. Azərbaycançılıq ideyasının təbliği

**Tarixdən məlumdur ki, idealist yanaşmada ideya mövcud hadisə haqqında bilik şəklində ortaya çıxır. Bu mənada yeni ideyalar yoxdan yarana bilməz. Amma o da nəzərə alınmalıdır ki, ideya şüurun düşündüyü hadisənin, prosesin və ya obyektin mahiyyətini əks etdirən fikirdir. İdeya təbiətdə maddi şəkildə mövcud deyil, amma elə ideya vasitəsilə insan dünyanı dəyişdirə bilir. Bunun real təzahürü azərbaycançılıq ideyası fonunda özünü göstərir.**



**Azərbaycanın postmüharibə dövründə öz şərtlərini diqtə edən tərəfə çevrilməsində azərbaycançılıq ideyası böyük ol oynayır**

Azərbaycançılıq ideyası müasir Azərbaycanın formalaşmasının təməl sütunu hesab olunur. Çünki bəlli həqiqətdir ki, Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək ötən əsrin son dekadasında müstəqilliyini yenidən bərpa edib. Amma bu müstəqilliyin möhkəmlənməsi, xalqın həmrəyliyinin formalaşmasında azərbaycançılıq ideyası həlleici rol oynayıb.

Bu gün Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra öz şərtlərini diqtə edən tərəfə çevrilməsində azərbaycançılıq ideyası böyük önəm kəsb edir. Postmüharibə dövründə sülh, əməkdaşlıq üçün vahid mövqe var, bu məsələdə cəmiyyət azərbaycançılıq ideyasına tam sadiqdir. Ermənistan isə ölkəmzilə müqayisədə parçalanmış haldadır. Belə ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın Ermənistanı ağır məğlubiyyətə düçar etməsindən sonra bu ölkədə revanşist mövqedən çıxış edən qüvvələr, o cümlədən "Qarabağ klanı"nın təmsilçiləri hakimiyyətə gəlmək məqsədilə aktiv fəaliyyət və təbliğata başlasa da uğursuzluğa düçar olub. Revanşist qüvvələrin Ermənistanı yeni müharibəyə sürükləmək cəhdləri erməni əhalisinin böyük əksəriyyəti tərəfindən qəbul edilmir. Bundan başqa, Ermənistanda nəzərə alınır ki, Azərbaycan istənilən revanş cəhdinə sərt cavab verəcəyini ən yüksək səviyyədə bəyan edib. Bu cavabın kifayət qədər ağır olacağını erməni xalqı 44 günlük müharibənin nəticələrinə əsasən yaxşı bilir. İkinci Qarabağ müharibəsində qazandığı tarixi zəfərlə Azərbaycan regionda yeni reallıqlar yaradıb. Yeni reallıqlar çərçivəsində regionun güc mərkəzi kimi statusunu daha da möhkəmləndirən Azərbaycan ona qarşı yönəlmiş istənilən təhdidi dərhal aradan qaldırmaq üçün bütün imkan və vasitələrə sahibdir. Bunu bütün erməni cəmiyyəti, o cümlədən revanşist qüvvələr də yaxşı bilir. Avantürist mövqe sərgiləməklə, xarici havadarlarının himayəsi ilə regionda sabitliyi təhdid yaradılması istiqamətində Ermənistanın revanşist qüvvələrinin istənilən addımı iflasa məhkumdur. Onları erməni cəmiyyəti qəbul etmir, regionda güc balansı davamlı şəkildə Azərbaycanın lehinə dəyişir. Çünki Azərbaycan vətəndaşları vahid amal, ideya və məqsəd ətrafında birləşiblər. Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, vahid dövlətçilik ətrafında birləşdirilməsi bu prosesdə öz sözünü deyir. Məsələnin mahiyyəti həm də bundan ibarətdir ki, azərbaycançılıq ideologiyası, ilk növbədə, bütün ölkə vətəndaşlarından Azərbaycanın dövlətçilik maraqlarına sevgi və qayğı tələb edir. O da nəzərə alınmalıdır ki, azərbaycançılıq ideologiyasının təməlində, ilk növbədə, güclü Azərbaycan dövlətçiliyi prinsipi, ümumazərbaycançılıq qayəsi olan vətəndaş birliyi və tolerantlıq ideyası dayanır. Bu şəraitdə Azərbaycan regionda lider ölkə statusunu daha da gücləndirir, şərtlərini diqtə edən tərəfə çevrilir.

**Bütün Azərbaycan xalqının ümumi maraqlarının ifadəsinə çevrilən ideologiya...**

Azərbaycançılıq ideologiyasında mərkəzi yerdə dayanan güclü Azərbaycan dövləti anlayışı indi ölkəmizdə bütün cəmiyyət tərəfindən qəbul olunur. Güclü dövlətin mövcudluğu indiki dünyada olduqca vacibdir. Bunu Rusiya-Ukrayna müharibəsi fonunda görmək olar.

Rusiya bu gün işğalçılıq müharibəsi ilə İkinci Dünya müharibəsinin dəhşətlərinə cavab olaraq 1945-ci ildə BMT-nin yaradılması ilə formalaşan dünya nizamına meydan oxuyur. BMT Nizamnaməsinə görə, onun məqsədi gələcək nəsilləri müharibənin bəlalarından qorumaqdır. "Sülhə təhdidləri aradan qaldırmaq", "təcavüz aktlarını və sülhün digər pozuntularını" dayandırmaq, beynəlxalq mübahisələri sülh yolu ilə həll etmək üçün BMT tərəfindən kollektiv hərəkətlərə çağırılır. Bu məqsədlə Nizamnamədə BMT Təhlükəsizlik Şurasının istifadə edə biləcəyi sanksiyalar da daxil olmaqla geniş spektrli qeyri-hərbi vasitələr var. Ekstremal hallarda Təhlükəsizlik Şurası hərbi müdaxilə haqqında da qərar verə bilər. Yalnız bu vasitələr tez-tez işləmir, çünki Təhlükəsizlik Şurasına daim üzv olan beş nüvə dövləti veto hüququndan istifadə edərək qərara mane ola bilər. Bu, BMT-nin səmərəsizliyinin mühüm səbəbidir. İndi BMT Təhlükəsizlik Şurası iflic vəziyyətindədir. Onilliklər boyu əziyyətlə qurulan Avroatlantik təhlükəsizlik nizamı da son illərdə dağılmağa başlayıb. Rusiyanın son aqressiyası nəticəsində o, ümumiyyətlə sual altındadır. Bu və digər hallar göstərir ki, Ukraynaya qarşı amansız hücum köhnə təhlükəsizlik nizamını məhv edib. Rusiya qarşısına çıxan hər kəsi məhv etməklə hədələyir. Dünya nizamı və onun normaları məhv edilir. Bu səbəbdəndir ki, Ukraynaya qarşı amansız müharibə davam edir. Dünya bunu dayandıra bilmir. Elə bu şəraitdə hər bir ölkənin özünü ayrıca güc olması zəruri şərtdir. Azərbaycan da məhz buna çalışır. Azərbaycançılıq ideologiyası bu prosesdə təkanverici qüvvəyə çevrilir. Çünki azərbaycançılıq ideologiyası bütün Azərbaycan xalqının ümumi maraqlarının ifadəsinə çevrilib. Burada nəzərə alınır ki, azərbaycançılıq ideologiyası beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətini, transmilliləşən dünyanın inkişaf meyillərini diqqətdən kənarda qoymur.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***